*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*

***Derleme Makalesi | Review article***
***Geliş tarihi |Received:19.09.2025***
***Kabul tarihi |Accepted:20.11.2025***
***Yayın tarihi |Published:25.12.2025***

**Zümrüd Rahim Osmanlı**

***http://orcid.org/0009-0003-5710-6308***
*Associate Professor, National Defense University, Military Scientific Research Institute Azerbaijan, zumrud_osmanli@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Osmanlı, Z. R. (2025). Avro-Atlantıik Struktur Çərçivəsində Azərbaycan Respublikası və Türkiyə Respublıkası Arasında Hərbi Əməkdaşlığın Spesifikası. *Akademik Tarih ve Düşünce Dergisi*, *12* (6), 10-20.

# Avro-Atlantıik Struktur Çərçivəsində Azərbaycan Respublikası və Türkiyə Respublıkası Arasında Hərbi Əməkdaşlığın Spesifikası

***Xülasə***

*Məqalə Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlığın Avro-Atlantik struktur çərçivəsində formalaşan spesifik xüsusiyyətlərini araşdırır. İki ölkə arasındakı hərbi əməkdaşlıq regional təhlükəsizlik və qlobal sabitlik baxımından xüsusi əhəmiyyət kəsb edir və tarixi bağlar, strateji tərəfdaşlıq, eləcə də ortaq təhlükəsizlik maraqları üzərində qurulmuşdur. 2010-cu il Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Haqqında Müqavilə münasibətlərin hüquqi əsasını müəyyənləşdirir. Türkiyənin NATO üzvlüyü və Azərbaycanın "Sülh Naminə Tərəfdaşlıq" proqramında iştirakı iki dövlətin Avro-Atlantik təhlükəsizlik arxitekturasına inteqrasiyasını gücləndirir. 2021-ci il Şuşa Bəyannaməsi isə hərbi əməkdaşlığın institusional çərçivəsini daha da möhkəmləndirmişdir. Məqalə bu əməkdaşlığı yalnız ikitərəfli münasibət kimi deyil, Avro-Atlantik təhlükəsizlik sisteminin inteqrasiyaedici elementi kimi təhlil edir və hüquqi-institusional davamlılıqla yanaşı, müdafiə sənayesində qarşılıqlı fəaliyyəti də qiymətləndirir. Nəticələr hərbi əməkdaşlığın səmərəliliyinin artırılması və regional təhlükəsizliyin gücləndirilməsi üçün praktik tövsiyələr təqdim edir.*

***Açar sözlər:*** *Regional Təhlükəsizlik, Strateji Tərəfdaşlıq, Hərbi Əməkdaşlıq, Kibertəhlükəsizlik, Elektron Müdafiə*

# Specifics of Military Cooperation Between the Republic of Azerbaijan and the Republic of Türkiye Within the Euro-Atlantic Framework

***Abstract***

*The article examines the specific features of military cooperation between Azerbaijan and Türkiye within the Euro-Atlantic security framework. Military cooperation between the two states plays a significant role in regional security and global stability and is grounded in historical ties, strategic partnership, and shared security interests. The 2010 Agreement on Strategic Partnership and Mutual Assistance establishes the legal basis of bilateral relations. Türkiye's NATO membership and Azerbaijan's participation in the "Partnership for Peace" program further strengthen the integration of both countries into the Euro-Atlantic security architecture. The 2021 Shusha Declaration has further consolidated the institutional foundations of military cooperation. The article analyzes this cooperation not only as a bilateral relationship but also as an integrative component of the Euro-Atlantic security*

**Copyright and License Statement**

***All publication and copyright of this article are held by the Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi. The article is made available by the journal as open access under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Under this license, the article may be used, reproduced, and shared in any medium for non-commercial purposes, provided that proper scholarly attribution is given; however, the original content may not be altered, transformed, or used to create derivative works. The scientific, legal, and ethical responsibility for the content of the works published in the journal rests entirely with the author(s) of the article; the journal's editors and editorial board cannot be held responsible for this content. All requests concerning commercial reuse, translation, or republication of the article must be directed to the journal's editorial board at akademiktarihvedusunce@gmail.com.***

*system, assessing legal–institutional continuity as well as collaboration in the defense industry. The findings offer practical recommendations aimed at enhancing the effectiveness of military cooperation and strengthening regional security.*
***Keywords:*** *Regional Security, Strategic Partnership, Military Cooperation, Cybersecurity, Electronic Defense*

## Giriş

Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin təhlükəsizlik strategiyaları və hərbi əməkdaşlıq modelləri qlobal sabitlik və regional təhlükəsizliyin təmin edilməsində həlledici rol oynayır. NATO-nun kollektiv müdafiə mexanizmləri və Avrasiya məkanında fəaliyyət göstərən müxtəlif təhlükəsizlik blokları bu əməkdaşlığın təsir dairəsinin genişliyini aydın şəkildə nümayiş etdirir. Beynəlxalq təhlükəsizlik arxitekturasının çevik və dinamik transformasiyalara məruz qaldığı hazırkı geosiyasi şəraitdə strateji tərəfdaşlıqların güclənməsi yeni regional və qlobal güc balanslarının formalaşmasına gətirib çıxarır.

Bu kontekstdə Azərbaycan–Türkiyə hərbi əməkdaşlığı yalnız ikitərəfli münasibətlərin intensivləşməsi ilə məhdudlaşmır; o, eyni zamanda Cənubi Qafqazın təhlükəsizlik arxitekturasına və NATO-nun Şərqi Avropadakı geosiyasi maraqlarına birbaşa təsir göstərir. Hər iki ölkənin mütəmadi keçirdiyi birgə hərbi təlimlər, eləcə də Şuşa Bəyannaməsi kimi strateji sənədlər bu əməkdaşlığın regional və beynəlxalq müstəvidə əhəmiyyətini daha da artırır. Azərbaycan–Türkiyə münasibətləri müasir beynəlxalq təhlükəsizlik sistemində mühüm strateji dayaqlardan biri kimi çıxış edir. 2020-ci il Vətən müharibəsindən sonra əməkdaşlığın yeni mərhələyə keçməsi prosesin aktuallığını daha da gücləndirmişdir. Şuşa Bəyannaməsi həm hüquqi, həm də strateji baxımdan münasibətlərin yeni konseptual çərçivəsini müəyyən etmişdir.

Bununla yanaşı, Azərbaycanın NATO ilə artan əməkdaşlığı və Türkiyənin alyans daxilində əsas aktorlardan biri kimi çıxış etməsi tədqiqatın əhəmiyyətini artıran digər amillərdir. Zəngəzur dəhlizinin açılması perspektivi isə hərbi-strateji əməkdaşlığın geosiyasi ölçülərini genişləndirərək Mərkəzi Asiya ilə əlaqələnmə imkanlarını gücləndirir və yeni Avrasiya təhlükəsizlik reallıqları yaradır.

Tədqiqatın predmeti Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlığın hüquqi, institusional və strateji əsaslarının kompleks təhlilindən ibarətdir. Əsas məqsəd bu əməkdaşlığın Avro-Atlantik struktur çərçivəsində spesifik xüsusiyyətlərini araşdırmaq və onun regional və qlobal təhlükəsizlik sisteminə təsirlərini qiymətləndirməkdir. Məqalədə ikitərəfli münasibətlərin tarixi inkişafı, hüquqi baza (Şuşa Bəyannaməsi və digər müqavilələr), praktiki əməkdaşlıq istiqamətləri (birgə hərbi təlimlər, müdafiə sənayesi, kəşfiyyat sahəsində əməkdaşlıq) və NATO çərçivəsində qarşılıqlı fəaliyyət xüsusi olaraq təhlil edilir. Bu məqsədlə

müqayisəli yanaşma, sistemli analiz, mənbə araşdırması və geosiyasi təhlil metodlarından istifadə olunmuşdur.

**Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlığın tarixi və hüquqi çərçivəsi**

Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq həm regional, həm də beynəlxalq təhlükəsizlik arxitekturasında mühüm strateji əhəmiyyət kəsb edir. Bu əməkdaşlıq yalnız Avrasiya regionunun təhlükəsizlik siyasətlərinə təsir edən güc mərkəzi kimi deyil, həm də NATO çərçivəsində Avro-Atlantik təhlükəsizlik sisteminin vacib elementi kimi nəzərə çarpır. Avro-Atlantik strukturlar xüsusilə NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" (SNT) proqramı və digər təhlükəsizlik mexanizmləri vasitəsilə hərbi əməkdaşlığın inkişafına sistemli şəkildə dəstək verir. Bu struktur beynəlxalq təhlükəsizlik sistemində sabitliyin qorunması, kollektiv müdafiə və müttəfiq dövlətlər arasında qarşılıqlı fəaliyyətin təmin olunmasında əsas mexanizmdir. NATO-nun fəaliyyət dairəsi yalnız hərbi müdafiə ilə məhdudlaşmır; təşkilat müasir təhlükəsizlik çağırışları — kibertəhlükəsizlik, regional sabitlik və terrorizmlə mübarizə sahələrində də mühüm rol oynayır (Aksu, 2022).

Azərbaycanın Avro-Atlantik strukturlara inteqrasiyası Ümummilli Lider Heydər Əliyevin 1994-cü il 4 may tarixli sənədi ilə ölkənin NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulması ilə başlamışdır. Bu çərçivədə Azərbaycan NATO ilə əməkdaşlıq sahəsində ardıcıl addımlar atmış, hərbi təlimlərdə və sülhməramlı missiyalarda iştirak etmişdir (Azərbaycan Respublikası Müdafiə Nazirliyi, n.d.). Bu inteqrasiya prosesinin tərkib hissəsi olaraq Azərbaycanın NATO proqramları vasitəsilə həyata keçirdiyi fəaliyyətlər regional təhlükəsizliyin gücləndirilməsinə xidmət edir (Azerbaijan.az, n.d.). Türkiyə NATO-nun tamhüquqlu üzvü kimi Avro-Atlantik təhlükəsizlik arxitekturasında xüsusi çəkiyə malikdir və Azərbaycanın bu strukturlara inteqrasiyasını müxtəlif səviyyələrdə dəstəkləyir. İki ölkə arasında mövcud strateji tərəfdaşlıq regionda sabitliyin təmin edilməsinə, müdafiə və təhlükəsizlik sahəsində əməli imkanların genişləndirilməsinə şərait yaradır. Eyni zamanda Azərbaycan və Türkiyənin Mərkəzi Asiya respublikaları ilə təhlükəsizlik və hərbi əməkdaşlığı Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində daha geniş geosiyasi əhəmiyyət kəsb etməyə başlamışdır. Bu əməkdaşlığın intensivləşməsi regionda yeni təhlükəsizlik alyanslarının formalaşmasına və qeyri-regional aktorların təsir imkanlarının məhdudlaşmasına gətirib çıxarır (Altı dövlət bir millət…, 2022).

Azərbaycan–Türkiyə hərbi əməkdaşlığının tarixi kökləri XX əsrin əvvəllərinə qədər uzansa da, müstəqillik dövründən — 1991-ci ildən sonra əməkdaşlıq sürətlə inkişaf etmişdir (Hacıyeva, 2020). Müstəqil Azərbaycan üçün Türkiyə təhlükəsizlik və müdafiə sahəsində ən

mühüm strateji tərəfdaşlardan biri olmuşdur. Bu əməkdaşlığın hüquqi çərçivəsini formalaşdıran əsas sənədlər ikitərəfli müqavilələrdən ibarətdir:

***1992-ci il "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı hərbi təlim-təhsil haqqında müqavilə"**

Bu müqavilə Azərbaycan Ordusunun zabitlərinin Türkiyədə təlim keçməsini təmin etmiş, hərbi təhsil sahəsində qarşılıqlı öhdəliklər və resurs mübadiləsi üçün hüquqi baza yaratmışdır (Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı hərbi təlim-təhsil haqqında Müqavilə, 1992).

***1996-cı il hərbi təhsil, texniki və elmi əməkdaşlıq sazişi**

Bu saziş hərbi təhsil, texniki avadanlıqların istifadəsi və elmi tədqiqat sahələrində əməkdaşlığın normativ əsaslarını formalaşdırmış, hərbi biliklərin və texnologiyaların transferi, birgə təlim və tədqiqat proqramlarının icrası üçün hüquqi çərçivə yaratmışdır. Saziş həmçinin tərəflərin hərbi hazırlıq imkanlarını genişləndirərək regional təhlükəsizliyə töhfə vermişdir (Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası arasında texniki razılaşma, 2020).

***2010-cu il "Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə"**

Bu mühüm sənəd hər iki ölkənin hərbi hücum halında bir-birinə qarşılıqlı dəstək verməsini nəzərdə tutur və müdafiə sahəsində əməkdaşlığın strateji statusunu müəyyənləşdirir (Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə, 2010).

***2021-ci il Şuşa Bəyannaməsi**

Şuşa Bəyannaməsi Azərbaycan–Türkiyə müttəfiqlik münasibətlərinin yeni mərhələsini təsdiqləyərək hərbi, diplomatik və strateji sahələrdə əməkdaşlığın institusional əsaslarını gücləndirmişdir (Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi, 2021). Bəyannamə qarşılıqlı hərbi təlimlər, texnologiya transferi, müdafiə sənayesi layihələri və informasiya mübadiləsini prioritet istiqamətlər kimi müəyyən edir. Bu sənəd Cənubi Qafqazda güc balansını dəyişdirən əsas faktorlardan biri olmuşdur.

15 iyun 2021-ci ildə Şuşada imzalanmış Bəyannamə həmçinin Azərbaycanın ərazi bütövlüyü və regional təhlükəsizliyin təmin olunması ilə bağlı strateji hədəfləri dəstəkləyir. Azərbaycan Silahlı Qüvvələrinin Türkiyə modeli əsasında NATO standartlarına uyğunlaşdırılması isə Avro-Atlantik təhlükəsizlik arxitekturasına inteqrasiyanı daha da dərinləşdirir.

Türkiyənin pilotsuz uçuş aparatları (PUA) sahəsindəki qabaqcıl təcrübəsi Azərbaycan Ordusunun modernləşməsində xüsusi rol oynamışdır. Reyting.az-ın (2020) araşdırmasına görə, PUA-ların döyüş meydanında yaratdığı üstünlük 44 günlük Vətən müharibəsi zamanı özünü açıq şəkildə göstərmişdir. Piriyev (2022) qeyd edir ki, Bayraktar TB2 PUA-ları Azərbaycan Ordusunun qələbəsində həlledici rol oynamış, real vaxt kəşfiyyat və dəqiq zərbə imkanları ilə əməliyyat üstünlüyü təmin etmişdir.

**Avro-Atlantik struktur və ikitərəfli hərbi münasibətlər**

Avro-Atlantik təhlükəsizlik strukturu beynəlxalq münasibətlər sistemində qlobal sabitliyin qorunmasına yönəlmiş əsas mexanizmlərdən biridir. Bu strukturun mərkəzi təşkilatı olan NATO kollektiv müdafiə prinsipi, beynəlxalq hərbi təlimlər, informasiya mübadiləsi və hərbi resursların inteqrasiyası vasitəsilə üzv və tərəfdaş dövlətlərin təhlükəsizlik imkanlarını gücləndirir. Azərbaycan NATO ilə əməkdaşlığını Sülh Naminə Tərəfdaşlıq (SNT) proqramı, Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı, Planlaşdırma və Analiz Prosesi, Tərəfdaşlığın Qərargah Vəzifələri, Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı və Sülh Naminə Elm Proqramı kimi mexanizmlər vasitəsilə həyata keçirir. Bu əməkdaşlıq hərbi təlimlərin modernləşdirilməsi, sülhməramlı qüvvələrin hazırlanması, kibertəhlükəsizlik, dəniz təhlükəsizliyi, hava məkanına nəzarət və logistika sahələrində proseslərin təkmilləşdirilməsinə xidmət edir (Azərbaycan Respublikası Müdafiə Nazirliyi, n.d.).

**Birgə hərbi təlimlər və müdafiə sənayesi əməkdaşlığı**

Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin NATO-nun çoxmillətli hərbi təlimlərində birgə iştirakı ikitərəfli hərbi əməkdaşlığın vacib komponentlərindən biridir. Xüsusilə, Gürcüstanda NATO üzvü və tərəfdaşlarının iştirakı ilə keçirilmiş "Agile Spirit 2023" təlimində hər iki ölkə ordusunun birgə fəaliyyəti xüsusi qeyd olunmalıdır (Turan.az, 2023). Azərbaycan hərbçiləri Türkiyədə keçirilən digər NATO təlimlərində də aktiv iştirak edirlər.

Bundan əlavə, Azərbaycan və Türkiyə mütəmadi olaraq ikitərəfli hərbi təlimlər həyata keçirir. Bu təlimlər Azərbaycan Ordusunun taktiki hazırlığının artırılmasına, NATO standartlarına uyğunlaşmasına və müasir döyüş taktikalarının mənimsənilməsinə şərait yaradır (Azərbaycan Respublikası Müdafiə Nazirliyi, 2025).

Azərbaycan SNT proqramı çərçivəsində imzalanmış razılaşmalar əsasında hərbi kontingentini Türkiyə Silahlı Qüvvələrinin tərkibində Kosovodakı sülhməramlı missiyalara göndərmiş və Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin (ISAF) tərkibində fəaliyyət göstərmişdir (Cəfərov & Möhbəliyev, 2021). Azərbaycan zabit heyəti eyni zamanda NATO-nun müxtəlif təlim-məşq mərkəzlərində — Türkiyə, ABŞ, Böyük Britaniya, Almaniya

və Şərqi Avropa dövlətlərində — hazırlıq keçmişdir. Bu hazırlıqlar STANAG standartlarına uyğun döyüş texnikası, əməliyyat idarəetməsi, sülhməramlı missiyalar, kiber təhlükəsizlik, xüsusi təyinatlı əməliyyatlar və hava-dəniz əməliyyatlarının tətbiqi sahələrini əhatə edir.

Bu proses Azərbaycan Ordusunun NATO standartlarına yaxınlaşmasını sürətləndirərək hərbi əməliyyat qabiliyyətini artırır (Azərbaycan Respublikası Müdafiə Nazirliyi, n.d.).

**Regional təhlükəsizlik və geosiyasi təsirlər**

Azərbaycan və Türkiyə arasındakı hərbi əməkdaşlıq Cənubi Qafqazda və daha geniş regionda təhlükəsizliyin təmin olunmasına mühüm təsir göstərir. İki ölkənin birgə təlimləri, sərhəd zonasında təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və regional sülh proseslərindəki koordinasiyası əməkdaşlığın praktiki əhəmiyyətini nümayiş etdirir. Xüsusilə, 44 günlük Vətən müharibəsi zamanı hərbi-siyasi koordinasiya və müharibədən sonrakı dövrdə ortaya çıxan yeni təhlükəsizlik çağırışları bu əməkdaşlığın regional güc balansında mühüm rolunu təsdiqləmişdir (Əmrahov, 2023).

Türkiyə və Azərbaycan kibertəhlükəsizlik və elektron müdafiə sahəsində müasir texnologiyaların tətbiqi üzrə sıx əməkdaşlıq aparır. Avro-Atlantik struktur çərçivəsində Azərbaycan–Avropa İttifaqı münasibətləri hərbi əməkdaşlıq baxımından məhdud olsa da, enerji təhlükəsizliyi və regional sabitlik üzrə tərəfdaşlıq mövcuddur. Strateji Tərəfdaşlıq Memorandumu bu istiqamətdə enerji infrastrukturunun təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir (Azərbaycan–Avropa İttifaqı, n.d.).

Türkiyə NATO daxilində aktiv iştirak edən əsas aktorlardan biri kimi Avro-Atlantik təhlükəsizlik arxitekturasının gücləndirilməsinə töhfə verir. Türkiyənin Şərqi Aralıq dənizi və Cənubi Qafqazda hərbi iştirakını artırması, həmçinin NATO təlimlərinin təşkilində aparıcı rol oynaması onun regional və qlobal müdafiə sistemindəki strateji əhəmiyyətini göstərir. Azərbaycan isə Avropa İttifaqının enerji təhlükəsizliyi üçün mühüm tərəfdaş olmaqla iki ölkənin hərbi-strateji əməkdaşlığının Qərb təhlükəsizlik sisteminə inteqrasiyasını daha da dərinləşdirir. Azərbaycanın NATO-ya tam üzv olmaması onun Avro-Atlantik strukturlarla hüquqi və praktiki əlaqələrini məhdudlaşdıra bilər, lakin Türkiyənin NATO üzvü kimi mövqeyi Azərbaycanın bu təhlükəsizlik sisteminə inteqrasiya imkanlarını genişləndirən ən mühüm amillərdən biridir.

**Türk Dövlətləri Təşkilatı (TDT) və kollektiv müdafiə perspektivləri**

Avro-Atlantik təhlükəsizlik arxitekturasının güclənməsi və transatlantik əməkdaşlığın artan əhəmiyyəti müasir qlobal təhlükəsizlik şəraitində mühüm rol oynayır. Bu kontekstdə Türk Dövlətləri Təşkilatı (TDT) Avrasiyada təhlükəsizliyin təmin olunması və regional əməkdaşlığın

genişləndirilməsində strateji aktor kimi çıxış edir. TDT-nin inkişafı və onun təhlükəsizlik təşəbbüsləri Avro-Atlantik strukturlarla yanaşı digər regional təşkilatlarla qarşılıqlı əlaqədə qiymətləndirilməlidir.

TDT türk dünyası dövlətləri arasında siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığı təşviq edən mühüm platformadır. Təşkilat üzv dövlətlər arasında iqtisadi münasibətlərin inkişafını, təhlükəsizlik məsələləri üzrə birgə fəaliyyətlərin həyata keçirilməsini və mədəni-humanitar əlaqələrin gücləndirilməsini prioritetləşdirir. Xüsusilə Azərbaycan–Türkiyə əməkdaşlığı TDT çərçivəsində hərbi əməkdaşlıq və kollektiv müdafiə təşəbbüslərinin formalaşdırılmasında aparıcı rol oynayır (Osmanlı, 2025). Hər iki ölkənin hərbi təcrübəsi və texnoloji imkanları digər türk dövlətləri üçün nümunə təşkil edir. Son illərdə TDT daxilində "Qardaş Yumruğu", "TurAz Qartalı" və "Qardaş Ayulduz Təlimi–2022/1" kimi birgə hərbi təlimlərin keçirilməsi təşkilat daxilində vahid təhlükəsizlik konsepsiyasının formalaşması üçün mühüm zəmin yaratmışdır (Rüstəmova, 2024). TDT-də kollektiv müdafiə mexanizmi tam formalaşmasa da, onun gələcəkdə təşkili mümkün hesab olunur. Bu istiqamətdə NATO və KTMT kimi qurumların təcrübəsi modelləşdirilə bilər.

Gələcəkdə TDT çərçivəsində mümkün kollektiv müdafiə sisteminin əsas elementləri aşağıdakılar ola bilər: Üzv dövlətlərin orduları arasında əlaqələrin gücləndirilməsi məqsədilə ortaq hərbi təlimlər və əməliyyat planlaşdırılması; Müdafiə sənayesində inteqrasiya – Türkiyə və Azərbaycanın qabaqcıl hərbi texnologiyalarının paylaşılması və birgə istehsal müəssisələrinin yaradılması; Ortaq təhlükəsizlik platforması – kibertəhlükəsizlik, terrorizmlə mübarizə və regional böhranların idarə olunması sahələrində əməkdaşlığın genişləndirilməsi; Hərbi-strateji dəstək mexanizmi – üzv dövlətlər arasında qarşılıqlı hərbi yardım müqavilələrinin hazırlanması (Altı dövlət bir millət–Türk Dövlətləri Təşkilatının Özbəkistan sammiti, 2022). Bu konseptual elementlərin praktik təlimlər və institusional tədbirlərlə dəstəklənməsi perspektivdə TDT daxilində vahid təhlükəsizlik strukturlarının formalaşmasına şərait yarada bilər. TDT çərçivəsində kollektiv müdafiə sisteminin yaradılması Avrasiya təhlükəsizlik arxitekturasında yeni güc mərkəzinin formalaşmasına və Türk dünyasının qlobal strateji aktor statusuna yüksəlməsinə imkan verə bilər. Bununla belə, bu proses müəyyən çətinliklərlə də müşayiət olunur: Rusiya, Çin və Qərb kimi beynəlxalq güclərin mümkün mənfi reaksiyası; Üzv dövlətlərin fərqli geosiyasi prioritetləri – xüsusilə Qazaxıstan və Özbəkistanın ehtiyatlı mövqeyi; nİnfrastruktur və koordinasiya problemləri – vahid komandanlıq, logistika və kommunikasiya sistemlərinin qurulması tələbi (Altı dövlət bir millət–Türk Dövlətləri Təşkilatının Özbəkistan sammiti, 2022). TDT-nin hərbi əməkdaşlıq sahəsində irəliləyişləri son

illərdə daha aydın şəkildə müşahidə olunur. 8 iyul 2024-cü il tarixində keçirilmiş "Birləşdik–2024" hərbi təlimi üzv dövlətlər arasında əlaqələndirilməni gücləndirmiş və qarşılıqlı müdafiə imkanlarını artırmışdır (Ordu.az, 2024). Gələcəkdə bu təlimlərin NATO standartlarına uyğun genişləndirilməsi nəticədə regional təhlükəsizlik blokunun formalaşmasına gətirib çıxara bilər.

TDT-nin hərbi əməkdaşlıq istiqamətində inkişafının əsas vektorları aşağıdakılar ola bilər: Müdafiə Nazirləri Şurasının təsis edilməsi, ortaq hərbi təlimlərin və sülhməramlı missiyaların genişləndirilməsi, hərbi kadr hazırlığının gücləndirilməsi və birgə müdafiə sənayesi layihələrinin həyata keçirilməsi. Bu proses Azərbaycan və Türkiyənin liderliyi ilə TDT çərçivəsində kollektiv müdafiə mexanizmlərinin yaranmasına və regionda yeni güc balansının formalaşmasına təkan verə bilər (Rüstəmova, 2024).

**Gələcək hərbi-strateji əməkdaşlıq perspektivləri**

Azərbaycan və Türkiyə arasında hərbi-strateji əməkdaşlıq son illərdə daha da dərinləşmiş və regional güc balansını müəyyən edən əsas amillərdən birinə çevrilmişdir. Bununla yanaşı, hər iki ölkənin Avropa İttifaqının müdafiə təşəbbüsləri ilə əməkdaşlıq perspektivləri də mümkündür. Xüsusilə Türkiyənin Aİ-nin PESCO layihələrində iştirak imkanları fonunda Azərbaycanın da bu formatlara qoşulması nəzərdən keçirilə bilər.

Cənubi Qafqaz və Mərkəzi Asiyada geosiyasi proseslərin intensivləşməsi Avro-Atlantik təhlükəsizlik sisteminin genişlənməsi fonunda TDT-nin güclənməsini daha da aktuallaşdırır (Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə, 2010). TDT çərçivəsində ortaq müdafiə sisteminin formalaşdırılması gələcək ən mühüm perspektivlərdən biri hesab olunur. Hazırkı mərhələdə təhlükəsizlik sahəsində əməkdaşlıq ilkin olsa da, gələcəkdə TDT ölkələri tərəfindən birgə hərbi gücün yaradılması mümkün görünür (Bakı Xəbər, 2024).

TDT çərçivəsində gələcək perspektivlər aşağıdakı istiqamətləri əhatə edə bilər: Hərbi-texniki əməkdaşlığın genişləndirilməsi; Birgə müdafiə sənayesi layihələrinin icrası; Vahid hərbi təlimlərin və sülhməramlı missiyaların təşkili; Qeyri-regional aktorların təsirinin azaldılması və kollektiv təhlükəsizlik konsepsiyasının inkişafı.

Azərbaycan və Türkiyə arasındakı strateji hərbi əməkdaşlıq regionda güc balansını dəyişdirən mühüm amillərdəndir. Azərbaycanın hərbi potensialının artması və Türkiyənin regional təsirinin güclənməsi yeni təhlükəsizlik konfiqurasiyalarının formalaşmasına səbəb olur. Zəngəzur dəhlizinin açılması ilə Mərkəzi Asiya ölkələri ilə birbaşa bağlantı hərbi-logistik imkanları daha da genişləndirəcəkdir.

Nəticə etibarilə Azərbaycan–Türkiyə hərbi-strateji əməkdaşlığının gələcək perspektivləri çoxşaxəli və dinamikdir. Birgə hərbi təlimlər, müdafiə sənayesi əməkdaşlığı, NATO və Avro-Atlantik strukturlarla inteqrasiya, TDT çərçivəsində kollektiv müdafiə mexanizmlərinin inkişafı, regional təhlükəsizlik təşəbbüsləri və kibertəhlükəsizlik sahəsində əməkdaşlıq bu prosesin əsas istiqamətlərini təşkil edir. Gələcəkdə Türkiyə texnologiyası əsasında Azərbaycanda silah və hərbi texnika istehsalının həyata keçirilməsi və birgə müdafiə sənayesi müəssisələrinin yaradılması strateji baxımdan mühüm əhəmiyyət kəsb edəcəkdir. Bu perspektivlər həm milli təhlükəsizliyi gücləndirəcək, həm də regionda sabitliyi təmin edərək Azərbaycan və Türkiyənin beynəlxalq səviyyədə strateji mövqeyini artıracaqdır.

**Nəticə**

Aparılan araşdırmalar göstərir ki, Azərbaycan və Türkiyə arasındakı hərbi əməkdaşlıq hüquqi və institusional əsaslar baxımından möhkəm normativ çərçivəyə malikdir. 2010-cu ildə imzalanmış "Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Haqqında Müqavilə", 2021-ci il Şuşa Bəyannaməsi və digər ikitərəfli sazişlər bu əməkdaşlığın hüquqi-institusional dayanıqlığını təmin edir. Bu sənədlər göstərir ki, hərbi əməkdaşlıq yalnız müdafiə yönümlü fəaliyyətlərlə məhdudlaşmır; eyni zamanda strateji tərəfdaşlığın və regional təhlükəsizlik siyasətinin əsas komponentlərindən birinə çevrilmişdir. Azərbaycan Ordusunun modernləşdirilməsi, Türkiyənin hərbi sənaye təcrübəsinin tətbiqi və hərbi təlim-tədris sahəsində qarşılıqlı fəaliyyət bu əməkdaşlığın praktiki və qarşılıqlı faydaya əsaslandığını təsdiq edir.

Azərbaycan və Türkiyənin Avroatlantik təhlükəsizlik strukturları ilə əlaqələri də bu əməkdaşlığın spesifik xarakterini müəyyən edən vacib amillərdəndir. Azərbaycanın NATO-nun müxtəlif əməkdaşlıq formatlarında iştirakı və Türkiyənin alyans daxilində aparıcı aktor kimi mövqeyi iki ölkənin təhlükəsizlik inteqrasiyasını daha da gücləndirir. Paralel olaraq, TDT çərçivəsində hərbi əməkdaşlığın genişlənməsi regional təhlükəsizlik arxitekturasında yeni reallıqlar formalaşdırır. Azərbaycan və Türkiyə bu təşkilatda ortaq müdafiə və təhlükəsizlik mexanizmlərinin yaradılmasında əsas təşəbbüskarlar kimi çıxış edir və gələcəkdə TDT-nin kollektiv müdafiə modeli istiqamətində inkişafı mümkün görünür.

Zəngəzur dəhlizinin açılması perspektivi və Türkiyənin Mərkəzi Asiya ilə birbaşa strateji əlaqələrinin güclənməsi Azərbaycan–Türkiyə əməkdaşlığının Avrasiya məkanında yeni geosiyasi təsir gücü yaratdığını göstərir. Bu kontekst iki ölkənin hərbi-strateji tərəfdaşlığının regional olduğu qədər qlobal əhəmiyyət daşıdığını da sübut edir.

Beləliklə, Azərbaycan və Türkiyə arasındakı hərbi əməkdaşlıq Avroatlantik təhlükəsizlik sisteminə inteqrasiya, müdafiə sənayesinin inkişafı və regional təhlükəsizliyin

möhkəmləndirilməsi baxımından strateji dəyərə malikdir. Perspektivdə bu əməkdaşlığın daha da dərinləşməsi yalnız iki dövlətin milli maraqlarına xidmət etməyəcək, həm də Cənubi Qafqaz və Avrasiyada yeni təhlükəsizlik arxitekturasının formalaşmasına töhfə verəcəkdir. Tədqiqat göstərir ki, Azərbaycanın və Türkiyənin hərbi əməkdaşlığı gələcəkdə daha geniş miqyasda inkişaf edəcək, NATO və TDT çərçivəsində inteqrasiya isə regional və qlobal təhlükəsizlik dinamikasına mühüm təsir göstərəcəkdir.

**References**

Altı dövlət bir millət–Türk Dövlətləri Təşkilatının Özbəkistan sammiti. (2022, 16 Noyabr). *Ordu.az.*https://ordu.az/az/news/241304/alti-dovlet-bir-millet%7C-turk-dovletleri-teskilatinin-ozbekistan-sammiti

Aksu, F. (2022). *Barış için ortaklık.* Secopedia. https://www.secopedia.org/kavramlar/temel-kavramlar-baris-icin-ortaklik-bio/

Azerbaijan.az. (n.d.). *Azərbaycan–NATO.* https://azerbaijan.az/related-information/198

Azərbaycan – Avropa İttifaqı. (n.d.). *Azerbaijan.az.* https://azerbaijan.az/related-information/193

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı hərbi təlim-təhsil haqqında Müqavilə. (1992, 11 avqust). *E-qanun.* https://e-qanun.az/framework/22411

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası arasında texniki razılaşma, "Anadolu Ankası Təlimi" zamanı ev sahibi ölkə. (2020, 18 mart). *E-qanun.* https://e-qanun.az/framework/46165

Azərbaycan Respublikası Müdafiə Nazirliyi. (2025). *Beynəlxalq hərbi əməkdaşlıq.* https://mod.gov.az/az/beynelxalq-herbi-emekdasliq-025/

Azərbaycan Respublikası Müdafiə Nazirliyi. (n.d.). *Azərbaycan Respublikası və Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) arasında hərbi əməkdaşlıq.* https://mod.gov.az/az/nato-ile-emekdasliq-028/

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi. (2021, 15 iyun). *E-qanun.* https://e-qanun.az/framework/49147

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə. (2010, 16 avqust). *E-qanun.* https://e-qanun.az/framework/21158

Bakı Xəbər. (2024, 7 noyabr). *Türk dövlətlərinə strateji saziş təklif edildi – Hərbi müdafiə əməkdaşlığı nə vaxt olacaq?* https://www.baki-xeber.com/siyaset/220471.html

Cəfərov, F., & Möhbəliyev, M. (2021). Azərbaycan Ordusu: Sülhməramlı missiyamızı layiqincə yerinə yetirdik. *Azərbaycan Respublikası Müdafiə Nazirliyi.* https://mod.gov.az/az/pre-37496.html

Əmrahov, M. (2023). 44 günlük II Qarabağ-Vətən müharibəsində Türkiyə. *Akademik Tarih ve Düşünce Dergisi, 10*(2), 492–515.

Hacıyeva, D. (2020). *1917–1922-ci illərdə Azərbaycan–Türkiyə münasibətləri.* Elm və Təhsil.

Ordu.az. (2024, 10 iyul). *Turan Ordusu qurulur: "Birləşdik–2024" təlimi daha nəyə işarə edir?* https://ordu.az/az/news/324273/turan-ordusu-qurulur-birlesdik-2024-t

Osmanlı, Z. (2025). Türkiyə–Azərbaycan münasibətlərinin Türk dünyasına təsiri. *Hərbi Bilik: Elmi-praktik jurnal, 2*(11). Hərbi Nəşriyyat.

Piriyev, H. K. (2022, 23 noyabr). İkinci Qarabağ müharibəsinin hərbi aspektləri. *Azərbaycan Respublikası Müdafiə Nazirliyi.* https://mod.gov.az/az/pre-45218.html

Reyting.az. (2020, 21 noyabr). *Qarabağ müharibəsində dron təcrübəsi – Ekspert rəyləri.* https://reyting.az/slayd/45306-qarabag-m

Rüstəmova, A. (2024). Türkdilli dövlətlərin əməkdaşlığının hərbi aspektləri. *Akademik Tarih ve Düşünce Dergisi, 11*(7), 3–19. https://dergipark.org.tr/tr/pub/atdd/issue/85042

Turan.az. (2023, 25 avqust). Azərbaycan Gürcüstanda NATO-nun AGILE Spirit-2023 təlimlərində iştirak edir. *Turan.az.* https://turan.az/az/siyaset/azerbaycan-gurcustanda-nato-

***Telif ve Lisans Bildirimi***

***Bu makalenin tüm yayın ve telif hakları Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi'ne aittir. Makale, dergi tarafından Creative Commons Atıf-GayriTicari 4.0 Uluslararası Lisansı (CC BY-NC 4.0) kapsamında açık erişimli olarak sunulmaktadır (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Bu lisans kapsamında, makale uygun bilimsel atıf yapılması koşuluyla ve yalnızca ticari olmayan amaçlarla her türlü ortamda kullanılabilir, çoğaltılabilir ve paylaşılabilir; ancak orijinal içeriğin değiştirilmesi, dönüştürülmesi veya üzerinde türev eser üretilmesi kesinlikle yasaktır. Dergide yayımlanan çalışmaların bilimsel, hukuki ve etik sorumluluğu tamamen makale yazar(lar)ına aittir; dergi editörleri ve yayın kurulu bu içerik nedeniyle sorumlu tutulamaz. Makalenin ticari yeniden kullanımı, çeviri veya yeniden yayımlanmasına ilişkin tüm talepler, derginin editör kuruluna akademiktarihvedusunce@gmail.com adresi üzerinden iletilmelidir.***